# İQTİSADİYYAT ELMİ VƏ İQTİSADİ SİYASƏT


**Elşən Bağırzadə**

*iqtisad üzrə fəlsəfə doktoru*



**Bakı - 2015**

# GİRİŞ əvəzi

**Elmin faciəsi! Gözəl bir hipotezin çirkin bir həqiqətlə yox olması!**

***Thomas Henry Huxley***

# ELM VƏ ELMİ METOD

- ***“Elm”*** (İng. science) sözü “öyrənmək” anlamına gələn Latın mənşəli “scire”dən törəmişdir.
- Bu günkü mənada “elm” sözü “öyrənmək prosesi”dir.
- ***Elmi proses*** iki mərhələli bir prosesdir:
  - Fenomenlərin qruplaşdırılması;
  - Qruplaşdırılmış fenomenlər arasındakı oxşarlıq və ya fərqliliklərin müşahidə edilməsi yolu ilə səbəb-nəticə əlaqəsinin qurulması.

# ELM VƏ ELMİ METOD

- ***Müşahidə*** prosesi fenomenlərin ortaq tərəflərinin müəyyən edilərək ümumiləşdirilməsini də doğurur.
- ***Ümumiləşdirmələr*** fenomenlərin səbəb-nəticə əlaqələri dəsti içində toplanmasına və bundan çıxış edərək elmi nəticələr əldə edilməsinə kömək edir.
- ***Səbəb-nəticə əlaqələri***nin ya olduğu kimi, ya da müəyyən təcrübə və ya müşahidə yolu ilə test edildikdən sonra ortaya qoyulması elmi çərçivənin müəyyən edilməsini təmin edir.

# ELM VƏ ELMİ METOD

- Səbəb-nəticə əlaqələrinin ortaya qoyulmasının üç yolu vardır:
  - ***Hipotez***: müəyyən bir səbəb-nəticə əlaqəsinin hələ təcrübə və ya yetərli qədər müşahidə ilə ispatlanmamış ifadəsidir.
  - ***Elmi qanun***: səbəb-nəticə əlaqələri üzərində qurulan, təcrübə və ya müşahidələrlə ispatlanan, ya da rədd edilməyən hipotezlərdir.
  - ***Nəzəriyyə***: Bir çox səbəb-nəticə əlaqəsinin birlikdə müəyyən bir disiplin formasında birləşdirilməsindən meydana gələn biliklərin məcmusudur.

# ELM VƏ ELMİ METOD

- Səbəb-nəticə əlaqələrinin hipotez, elmi qanun və ya nəzəriyyələr çərçivəsində qruplaşdırıldığı biliyə əsaslanan həqiqəti dərk etmə metoduna ***elmi metod*** deyilir.
- ***Elmi metodun zəruri mərhələləri*** aşağıdakılardır:
  - Müşahidəyə açıq şəkildə bir problemin ifadə edilməsi;
  - Problemin bir hipotez çərçivəsində ifadə edilməsi;
  - Hipotezin təcrübə və ya müşahidələrlə test edilməsi, başqa sözlə doğruluğunun sınanması və ya yalnışlığının göstərilə bilməsi;
  - Əldə edilən nəticələrin şərh edilməsi və elmi bir qanunun ortaya qoyulması;
  - Test edilmiş hipotez və qanunlar üzərində oturdulmuş bir nəzəriyyənin inkişaf etdirilməsi.

# ELM VƏ ELMİ METOD

- Sosial elmlərlə dəqiq elmlər arasında elmi metod baxımından aşağıdakı fərqlər vardır:
  - Sosial elmlərdə fərziyyələrdən daha çox istifadə edilir;
  - Sosial elmlər müxtəlif fərziyyələrə əsaslanan abstraktlaşdırma metdodundan geniş şəkildə istifadə edir;
  - Dəqiq elmlərdə hipotezlər əsasən təcrübə metodu ilə test edildiyi halda, sosial elmlərdə müşahidə metodundan istifadə edilir.

# İQTİSADİYYAT ELMİ

- **Predmeti və elmlər arasındakı yeri:**

  – ***Sosial elm*** olmaqla, öyrəndiyi əsas predmet qıt resurslardan ehtiyacları ən yüksək səviyyədə ödəyəcək formada istifadə edilməsidir.

  – Xüsusilə də pozitiv iqtisadiyyatın istifadə etdiyi kəmiyyət metodları və modellər nəzərə alındıqda ***dəqiq elmlərə ən yaxın sosial elm*** olduğunu söyləmək mümkündür.

# İQTİSADİYYAT ELMİ

- **Makroiqtisadiyyat və mikroiqtisadiyyat:**
  - ***Makroiqtisadiyyat*** dedikdə, iqtisadiyyat elminin qlobal və ya milli parametrləri öyrənən alt qoludur.
    - Məsələn, milli gəlir, pul təklifi, inflyasiya, işsizlik, cari əməliyyatlar hesabı, məcmu tələb, məcmu təklif kimi bütövlükdə iqtisadiyyatla əlaqəli olan məsələləri öyrənir.
  - ***Mikroiqtisadiyyat*** dedikdə, iqtisadiyyat elminin cəmiyyətin ayrı-ayrı fərdlərini və ayrı-ayrı firmaları maraqlandıran iqtisadi problemləri öyrənən alt qoludur.
    - Məsələn, fərdi tələb, firma təklifi, istehlakçı tarazlığı, firma tarazlığı kimi məsələləri öyrənir.
  - Obrazlı desək, mikroiqtisadiyyat ayrı-ayrı ağaclarla maraqlandığı halda, makroiqtisadiyyatın maraq dairəsi meşədir.

# İQTİSADİYYAT ELMİ

- **Pozitiv iqtisadiyyat və normativ iqtisadiyyat:**
  - ***Pozitiv iqtisadiyyat*** iqtisadiyyat elminin nəzəri qoludur.
    - İngilis dilində “economics” termini ilə ifadə edilir.
    - Seçimlərə və inanclara yer vermir.
    - Fenomenləri elmi şəkildə təhlil edir.
    - İrəli sürdüyü mülahizələr isbat oluna biləndir
  - ***Normativ iqtisadiyyat****,* iqtisadiyyat elminin iqtisadi siyasəti əhatə edən alt qoludur.
    - Seçimlər, başqa sözlə subyektiv hədəflərə yer verilir.
  - Məsələn, inflyasiya nədir, necə meydana gəlir sualının cavabını axtarmaq və bunu bir nəzəriyyə çərçivəsində izah etmək pozitiv iqtisadiyyatın, gəlir bölgüsünün ədalətli olub-olmadığını qiymətləndirmək və ondan nəticələr çıxarmaq isə normativ iqtisadiyyatın predmetidir.

# İQTİSADİYYAT ELMİ

- İqtisadiyyat elminin əsas xüsusiyyətlərindən biri ***hipotez, qanun və nəzəriyyələrinin zaman və məkana görə dəyişə bilən olması***dır.
  - Çünkü insan və cəmiyyət davranışları dəyişdikdə, iqtisadiyyatın qanunları da dəyişir.
  - Nəticədə, iqtisadiyyat elmində eyni mövzu üzrə çoxlu sayda hipotez, qanun və nəzəriyyə mövcud ola bilir.

# İQTİSADİYYAT ELMİ

- ***İqtisadiyyat elminin əsas məqsədi***, iqtisadi fenomenlər arasındakı səbəb-nəticə əlaqələrini açıqlayan ümumiləşdirmələrin ortaya qoyulmasıdır.
- İqtisadiyyat elmi səbəb-nəticə əlaqələrini açıqladığı zaman elmi metodun hipotez, qanun və nəzəriyyə mərhələlərindən keçir.
- İqtisadiyyat elmi dəqiq elmlərdən fərqli olaraq test etmə vasitəsi kimi təcrübə əvəzinə müşahidədən istifadə edir.

# İQTİSADİYYAT ELMİ

- İqtisadiyyat elmində səbəb-nəticə əlaqələrinin açıqlanmasında əsasən ***funksional münasibətlər***dən istifadə edilir.
- İqtisadiyyat elminin qanun və nəzəriyyələri dəqiq elmlərin qanun və nəzəriyyələri qədər dəqiq deyildir.
  - ***Alfred Marşal***: "İqtisadiyyat qanunları, az-çox müəyyən və az-çox dəqiq meyllərin ifadə edilməsindən ibarətdir."
- İqtisadiyyat elminin həqiqətin öyrənilməsini təmin etməyə istiqamətlənmiş metodu "***elmi abstraktlaşdırma***"dır.

# İQTİSADİYYAT ELMİ

- ***Abstraktlaşdırma***, qarışıq həqiqəti açıqlaya bilmək üçün bəzi fərziyyələrlə hadisəni sadələşdirərək ortaya qoymaq və mərhələ-mərhələ sadələşdirici fərziyyələri ortadan qaldırmaq yolu ilə qarışıq həqiqətin açıqlanmasına nail olmaq metodudur.
- İqtisadiyyat elmi, həqiqi həyatın qarışıq və başa düşülməsi çətin olan strukturunu sadələşdirərək təhlil edə bilmək məqsədilə müşahidə, funksional münasibətlər və abstraktlaşdırma metodlarına dayanaraq qurulan ***modellər***ə əsaslanır.

# İQTİSADİYYAT ELMİ

- ***Abstraktlaşdırma***, qarışıq həqiqəti açıqlaya bilmək üçün bəzi fərziyyələrlə hadisəni sadələşdirərək ortaya qoymaq və mərhələ-mərhələ sadələşdirici fərziyyələri ortadan qaldırmaq yolu ilə qarışıq həqiqətin açıqlanmasına nail olmaq metodudur.
- İqtisadiyyat elmi, həqiqi həyatın qarışıq və başa düşülməsi çətin olan strukturunu sadələşdirərək təhlil edə bilmək məqsədilə müşahidə, funksional münasibətlər və abstraktlaşdırma metodlarına dayanaraq qurulan ***modellər***ə əsaslanır.
  - Məsələn, dövri-axın diaqramı, istehsal imkanları əyrisi.

# İQTİSADİ SİYASƏT

- ***İqtisadi siyasət***, əsasən makroiqtisadi tarazlıqların hansı istiqamətdə və necə dəyişdiriləcəyi ilə bağlı yanaşmaları özündə birləşdirən bir sahədir.
  - Məsələn, iqtisadi artımı sürətləndirmək, işsizliyi, cari əməliyyatlar hesabı kəsirini, büdcə kəsirini azaltmaq və ya inflyasiya kimi qeyri-stabillik halları ilə mübarizə aparmaq üçün iqtisadiyyatın mövcud tarazlıqlarını dəyişdirmək tələb olunur.
- Makroiqtisadi tarazlıqları dəyişdirmək üçün tətbiq olunan tədbirlər paketi də ***iqtisadi siyasət*** adlandırılır.

# İQTİSADİ SİYASƏT

- ***İqtisadi siyasət***, iqtisadi tarazlıqda ortaya çıxan pozulmaları düzəltmək üçün tədbirlər görülməsini də nəzərdə tutur.
  - Məsələn, daralan iqtisadiyyatda yenidən iqtisadi artıma nail olmağa çalışmaq.
- İqtisadi tarazlıqda hər hansı bir pozulma olmasa belə, əgər ***daha yaxşı bir tarazlıq səviyyəsi***nə nail olmaq arzu edilirsə, bu zaman da iqtisadi siyasətdən istifadə edilir.
  - Məsələn, daha yüksək iqtisadi artım sürəti, daha yaxşı gəlir bölgüsü, daha aşağı inflyasiya, daha az dövlət borclanması, daha az büdcə kəsiri, daha yüksək məşğulluq, daha çox investisiya kimi arzu olunan yeni makroiqtisadi tarazlıqlara nail olmağa çalışmaq.

# İQTİSADİ SİYASƏT

- Pozulan tarazlıqları düzəltmək, ya da yeni və daha yaxşı tarazlıqlara nail olmaq fikri tətbiq ediləcək ***iqtisadi siyasətin seçimi***ni də zəruri edir.
- İqtisadi siyasətin müxtəlif alt qolları vardır. Bunları aşağıdakı kimi qruplaşdırmaq mümkündür:
  - ***Maliyyə siyasəti***;
  - ***Pul (monetar) siyasəti***;
  - ***Digər siyasətlər***.
- Hər bir iqtisadi siyasət növünün özünəməxsus ***alətlər***i vardır. İqtisadiyyatda müəyyən edilmiş hədəflərə uyğun olaraq bu alətlərdən təkbaşına, ya da birlikdə istifadə edilir.

# İQTİSADİYYAT VƏ İQTİSADİ SİYASƏTİN TARİXİ TƏKAMÜLÜ

- İqtisadiyyat elminin əsas məsələsi ***qıtlıq və seçim*** olduğu üçün iqtisadi hadisələrin və bir növ bu hadisələr qarşısında alınan tədbirlər olan iqtisadi siyasətin tarixini çox qədimlərə qədər aparıb çıxarmaq mümkündür.
- Təxminən 40 min il əvvəl bu günkü (***homo sapiens***) forması ilə ilk dəfə dünya üzərində göründüyü fərz edilən insan, e.ə. 10-cu minilliklərə, başqa sözlə neolit dövrünə qədər ***ovçu və yığıcı (istehlakçı)*** kimi yaşamışdır.

# İQTİSADİYYAT VƏ İQTİSADİ SİYASƏTİN TARİXİ TƏKAMÜLÜ

- İnsanın e.ə. 10-7-ci minilliklər arasında ilk dəfə oturaq həyata keçərək əkinçiliyə və heyvandarlığa başladığı məlumdur. Bununla ***ilk iqtisadi inqilab*** reallaşmış və ***əkinçilik və ya neolit inqilabı*** adını almışdır.
- E.ə. 2-ci minilliyə doğru tunc dövrünü yaşayan Anadolu və Mesopotamiya arasında davamlı bir xarici ticarət fəaliyyəti ortaya çıxmışdır ki, bu da ***ikinci iqtisadi inqilab və ya xarici ticarət inqilabı*** adlandırılır.
- Ümumi yanaşma pulun ortaya çıxmasını sonrakı tarixlərə aid etsə də, e.ə. 1500-2000-ci illərdə metal külçələrin ödəniş vasitəsi kimi istifadə edilməyə başlanmasını ***üçüncü iqtisadi inqilab və ya pul inqilabı olaraq*** adlandırmaq mümkündür.

# İQTİSADİYYAT VƏ İQTİSADİ SİYASƏTİN TARİXİ TƏKAMÜLÜ

- Orta əsrlərin feodal sistemində tədricən feodalların malikanələrinin ətrafında onların topaqlarını əkib-becərən, onlara xidmət edən və ilk əmək haqqı alan təhkimçi kəndlilərin ortaya çıxması ***dördüncü iqtisadi inqilab və ya izafi dəyərin yaradılması inqilabı***nın ortaya çıxmasını doğurmuşdur.
- İqtisadiyyatın bir elm kimi deyil, intuitiv yanaşmalar kimi ortaya çıxması 15-ci əsrdən Qərbdə yayılmağa başlanan ***merkantilizm yanaşması*** ilə bağlıdır.

# İQTİSADİYYAT VƏ İQTİSADİ SİYASƏTİN TARİXİ TƏKAMÜLÜ

- Merkantilizm eyni zamanda məlum olan ***ilk sistemli iqtisadi siyasət yanaşması***dır.
- Merkantilist siyasətin əsas tezisləri aşağıdakılardır:
  - Qiymətli metalları əldə edərək zənginliyi artırma düşüncəsi (***bulyonizm***);
  - Dövlətin iqtisadi həyata aktiv müdaxiləsi;
  - İdxal məhdudiyyətləri tətbiq edərək ölkə daxilində istehsalı mümkün olan məhsulların xaricdən alınmasının qadağan edilməsi, başqa sözlə ölkədən qiymətli metal çıxışının məhdudlaşdırılması;
  - Məhsul ixracını stimullaşdıraraq qiymətli metalları əldə etmək fikri.

# İQTİSADİYYAT VƏ İQTİSADİ SİYASƏTİN TARİXİ TƏKAMÜLÜ

- Merkantilizmin əsas xüsusiyyətlərindən biri də xarici ticarət siyasətinin ***xarici ticarət profsiti*** yarada bilməsidir.
- Bu yanaşma isə ***xarici ticarətdə proteksionizm, yüksək gömrük divarları ilə idxalatın məhdudlaşdırılması*** və ***müxtəlif stimullarla ixracın artırılması***nı nəzərdə tutur.

# İQTİSADİYYAT VƏ İQTİSADİ SİYASƏTİN TARİXİ TƏKAMÜLÜ

- 18 və 19-cu əsrlərdə iqtisadi düşüncənin inkişafına damğasını vuran və ən mühüm nümayəndələri Adam Smith, David Ricardo, Thomas R. Malthus, John Stuart Mill və Alfred Marshall olan ***klassik iqtisadçılar***a görə pul iqtisadiyyatda mühüm bir element olsa da, əsl mühüm olan pulun üstünü örtdüyü real hadisələrdir.
- Klassik iqtisadçılar bulyonizmlə yanaşı, dövlətin iqtisadiyyata müdaxiləsinə də qarşı çıxmışdır.
- Klassik iqtisadi nəzəriyyə ***iqtisadiyyatın təklif cəbhəsinə üstünlük vermiş*** və əsas müddəalarını bu istiqamətdə formalaşdırmışdır.

# İQTİSADİYYAT VƏ İQTİSADİ SİYASƏTİN TARİXİ TƏKAMÜLÜ

- ***Klassik iqtisadi məktəbin əsas yanaşmaları*** aşağıdakılardır:
  - İqtisadiyyat tam məşğulluq halında tarazlıqda olur və bu tarazlıqdan sapmalar müvəqqəti xarakter daşıyır;
  - Bazarda hər subyekt öz mənafeyini maksimumlaşdırmaq istiqamətində çalışır və beləliklə cəmiyyətin mənafeyi də maksimumlaşdırılır;
  - İqtisadiyyatda əmək haqqı və qiymətlər elastikdir və tam məşğulluq şəraitində uzun müddətli tarazlığı təmin edən də bu elastiklikdir.
  - Hər təklif öz tələbini yaradır (***Say Qanunu***).
  - Bazar qeyri-tarazlıqları və tam məşğulluq tarazlığından sapmalar qısamüddətli xarakter daşıyır;
  - İqtisadiyyatın öz-özünü tənzimləyən mexanizmlərə malik olması səbəbilə dövlətin iqtisadiyyata, qeyri-tarazlıqları aradan qaldırmaq məqsədilə qarışmasına ehtiyac yoxdur;
  - Pul həqiqi (real) iqtisadi fəaliyyətin yalnız vasitəçisidir və digər məhsullar kimi onun da tələbini, başqa sözlə qiymətini təklifi müəyyən edir;
  - Xarici ticarətdə beynəlxalq ixtisaslaşma və mübadilə mümkün olduğu ölçüdə inkişaf etdirilərsə, bundan hər bir ölkə fayda əldə edəcəkdir (***Müqayisəli üstünlük nəzəriyyəsi***)

# İQTİSADİYYAT VƏ İQTİSADİ SİYASƏTİN TARİXİ TƏKAMÜLÜ

- Klassik iqtisadiyyat məktəbi 18-19-cu əsrlərdə ortaya çıxan sənayeləşmənin doğurduğu kütləvi istehsalın və bazar axtarışlarının intensivləşməyə başlandığı ***klassik kapitalizm dövrü***nü əhatə edir.
- Klassik iqtisadiyyat nəzəriyyəsi eyni zamanda ***iqtisadiyyatı başlı-başına buraxma və fəaliyyətinə müdaxilə etməmə*** formasında tətbiq edilən bir iqtisadi siyasət yanaşmasının da təməlini atmışdır.

# İQTİSADİYYAT VƏ İQTİSADİ SİYASƏTİN TARİXİ TƏKAMÜLÜ

- Kapitalist sistemin yaşadığı böyük böhranların ilki olan Uzun Depresiya 1970-ci illərdə Almaniyada başlayıb digər ölkələrə yayıldı.
- Sənaye inqilabı ilə ortaya çıxan böyük əmtəə və xidmət ticarəti sərbəstliyini sistem həzm edə bilməmiş və böhranla üzləşmişdi.
- Bu böhrandan çıxışda klassik iqtisadiyyat yanaşmasının ***neo-klassik yanaşma*** ilə yenidən formalaşdırılmasının mühüm rolu olmuşdur.
- Neo-klassik iqtisadi məktəbin nümayəndələri ***iqtisadi düşüncəni fəlsəfənin bir hissəsi olmaqdan çıxarmış***, onu ayrı bir elm sahəsinə çevirmişdir.
- Ən mühüm nümayəndələri William Stanley Jevons, Carl Menger və Leon Walras olan neoklassik iqtisadçılar öz ***tədqiqatlarını daha çox bazarlar üzərində aparmışdır.***

# İQTİSADİYYAT VƏ İQTİSADİ SİYASƏTİN TARİXİ TƏKAMÜLÜ

- Klassik iqtisadi nəzəriyyəyə ilk ciddi tənqid ***Marksist iqtisadi nəzəriyyə*** tərəfindən gətirilmişdir.
- ***Marx***, kapitalizmin əsas elementlərinə qarşı çıxmış və kapitalist sistemin, qeyri-taraz daxili hərəkətverici qüvvələri səbəbilə uzun müddət yaşaya bilməyəcəyini qeyd etmişdir.
- Marksist iqtisadi nəzəriyyənin əsas elementləri aşağıdakılardır:
  - Planlaşdırma;
  - Bazar mexanizmi əvəzinə planlaşdırılmış qiymətlər;
  - Xüsusi mülkiyyət əvəzinə ictimai mülkiyyəti.

# İQTİSADİYYAT VƏ İQTİSADİ SİYASƏTİN TARİXİ TƏKAMÜLÜ

- 1930-cu illərin böyük dünya iqtisadi böhranı ilə ortaya çıxan ***Keynesçi iqtisadi nəzəriyyə*** 1970-ci illərə qədər elə bir müqavimətə rast gəlməmiş və kapitalist dünyaya hakim olmuşdur.
- Keynesçi iqtisadi nəzəriyyənin əsas müddəaları aşağıdakılardır:
  - İqtisadiyyatda tam məşğulluq tarazlığı təsadüfi bir tarazlıqdır və davamlılığına heç bir şəkildə təminat vermək mümkün deyildir;
  - Həqiqətdə qiymətlər və əmək haqqları instutsional tənzimləmələr və iqtisadi olmayan səbəblərlə klassik iqtisadçıların  düşündükləri kimi xüsusilə aşağıya doğru elastik olmaya bilər;
  - Hər tələb öz təklifini yaradır;
  - Büdcə tarazlığı, neytral vergi kimi siyasətlər düzgün yanaşmalar deyildir və aktiv maliyyə və vergi siyasəti aparmalıdır.

# İQTİSADİYYAT VƏ İQTİSADİ SİYASƏTİN TARİXİ TƏKAMÜLÜ

- Keynesçi iqtisadi nəzəriyyənin hakimiyyəti 1970-ci illərdən başalayaraq müxtəlif iqtisadi məktəblərin müqaviməti qarşısında sarsılmaya başlamışdır.
- Neft ixrac edən ölkələrin neft qiymətlərini artırmaları nəticəsində ortaya çıxan inflyasiya şəraitində artan işsizlik fenomeni (***Phillips Əyrisi***nin əhəmiyyətini itirməsi) Keynesçi iqtisadi nəzəriyyənin tənqidinə səbəb olmuşdur.
- Keynesçi yanaşmaya ilk ciddi tənqid Milton Friedmanın liderliyində ***monetarizm iqtisadi məktəbi*** tərəfindən gəlmişdir.
- Klassik iqtisadi məktəbin əsas müddəalarını müdafiə edən monetarizmin əsas fərqi ***pulun iqtisadi həyatda ən mühüm fenomen olduğunu*** və pul təklifini idarə etmədən iqtisadi qeyri-tarazlıqların həll edilə bilməyəcəyini irəli sürməsidir.

# İQTİSADİYYAT VƏ İQTİSADİ SİYASƏTİN TARİXİ TƏKAMÜLÜ

- 1970-ci illərdə Keynesçi iqtisadi nəzəriyyəyə digər bir tənqid ***yeni klassik iqtisadi məktəb***dən gəlmişdir.
- Əsas təmsilçiləri Robert Barro, Thomas Sargent və Reobert Lucas olan yeni klassik iqtisadçılar, klassik iqtisadi nəzəriyyənin və monetarizmin bəzi fikirlərinə, ***rasional gözləntilər nəzəriyyəsi*** çərçivəsində yanaşaraq bazarların özbaşına buraxılmasının zəruriliyini vurğulamış və dövlətin bazarlara müdaxiləsinin reallıqda heç bir nəticə doğurmayacağını irəli sürmüşdür.
- Yeni klassik iqtisadçılar hesab edir ki, istər pul, istərsə də maliyyə siyasəti gözlənilən nəticələri verməz, çünkü ***dövlətin də digər iqtisadi subyektlərin də malik olduğu informasiya eyni***dir.

# İQTİSADİYYAT VƏ İQTİSADİ SİYASƏTİN TARİXİ TƏKAMÜLÜ

- 1980-ci illər Qərbdə klassik iqtisadi nəzəriyyənin əsas müddəalarından olan Say Qanununun yenidən gündəmə gəlməsinə yol açan ***təklif yönlü iqtisadiyyat yanaşması***nın iqtisadi siyasətdə hakim olması ilə yadda qalmışdır.
- İqtisadçı Arthur Lafferin adı ilə əbədiləşən təklif yönlü iqtisadiyyat özündə klassik iqtisadiyyatın ən yaxşı büdcə tarazlı büdcədir və ən yaxşı vergi neytral vergidir yanaşmalarına əsaslanaraq və vergilərin, real olmayan ətraf mühiti qoruma tədbirlərinin azaldılması kimi yollarla iqtisadiyyatın canladırıla biləcəyi iddiasını ortaya qoymuşdur.
- ABŞ-da ***Reagan*** və ***Bush***, İngiltərədə ***Thatcher*** hökumətləri bu siyasəti tətbiq etmiş, ancaq ciddi nəticələr əldə edilməmişdir.

# İQTİSADİYYAT VƏ İQTİSADİ SİYASƏTİN TARİXİ TƏKAMÜLÜ

- Zaman keçdikcə Keynesçi iqtisadçılar da öz nəzəriyyələrini inkişaf etdirməyə, ona yeni müddəalar əlavə etməyə davam etmişlər və nəticədə ***neo-keynesçi məktəb***i formalaşdırmışlar.

# İQTİSADİYYAT VƏ İQTİSADİ SİYASƏTİN TARİXİ TƏKAMÜLÜ

- İqtisadiyyat elminin üç istiqamətdə inkişaf etdiyini göstərmək mümkündür:
  - Azad bazar iqtisadiyyatına əsaslanan klassik iqtsiadi nəzəriyyə və bunun müxtəlif növləri (monetarizm, yeni klassik iqtisadiyyat və təklif yönlü iqtisadiyyat);
  - Komanda iqtisadiyyatına əsaslanan Marksist iqtisadi nəzəriyyə;
  - Dövlətin bazarlara müdaxiləsinə əsaslanan Keynesçi qarışıq iqtisadiyyat nəzəriyyəsi və onun davamı (neo-keynesçilik).

# İQTİSADİYYAT VƏ İQTİSADİ SİYASƏTİN TARİXİ TƏKAMÜLÜ

- Son 200 ildə dünya iqtisadiyyatında ortaya çıxan 2 əsas dəyişikliyə diqqət yetirməkdə fayda vardır:
  - “Sənaye inqilabı” ilə başlayan ***əmtəə və xidmətlərin beynəlxalq sərbəst hərəkəti*** və idxal üzərindəki məhdudiyyətlərin azaldılması;
  - 2000-ci illərdə dünya miqyasında ***kapital hərəkətlərinin sərbəstləşməsi***.
    - Kapitalın hərəkətinin sərbəstləşdirilməsi texnologiyaların da sürətlə yayılmasını doğurmuşdur.
- ***2008-ci ildəki qlobal iqtisadi böhran*** kapitalın beynəlxalq hərəkətinin sərbəstliyi səbəbindən bütün qlobal sistemə yayılmışdır.
- Maliyyə bazarlarının çökməsi iqtisadi durğunluğa səbəb olmuş və sistemin böhrandan çıxması üçün yenidən Keynesçi modelə müraciət edilmişdir.

# YOXLAMA SUALLARI

1. İqtisadiyyat elminin tərifini verin. Ehtiyaclar və onları ödəməyə yönəlmiş vasitələr arasında necə bir əlaqə vardır?
2. Makroiqtisadiyyat və mikroiqtsiadiyyat arasında nə fərq vardır? Onların öyrəndiyi məsələlərə dair ən azı 2 nümunə göstərin.
3. Pozitiv iqtisadiyyat və normativ iqtisadiyyat nə deməkdir? İqtisadi siyasət bunların hansı ilə əlaqəlidir?
4. İqtisadiyyat elmində qanunlar və nəzəriyyələr nə üçün fizika və ya kimyada olduğu qədər dəqiqliyə malik deyildir?
5. İqtisadi siyasətin əsas məqsədi nədir? Bu məqsədi reallaşdırmaq üçün hansı iki əsas siyasət vasitəsindən istifadə edilir?

# YOXLAMA SUALLARI

6. Neolit inqilabı nədir? Əsas xüsusiyyətlərini göstərin.
7. İzafi dəyərin yaradılmasının sonrakı dövrlərdə necə təsiri olmuşdur?
8. Merkantilizm nədir? Bulyonizm nə deməkdir?
9. Klassik iqtisadiyyat məktəbinin əsas müddəalarını qeyd edin.
10. Marksist iqtisadiyyatın kapitalizmdən başlıca fərqləri nələrdir?
11. Keynesçi iqtisadi siyasəti klassik iqtisadi məktəbin yanaşması ilə Marksist iqtisadi məktəbin yanaşmasının qarışığı olaraq ifadə etmək mümkündürmü?
12. İqtisadi fikrin inkişafını 3 istiqamət üzrə göstərmək tələb olunarsa, bunların hansılar olduğunu qeyd edərsiniz?
13. İqtisadi yanaşmaların böhranlarla birlikdə inkişaf edib yetkinləşdiyi fikrinə münasibətiniz necədir?

# TÖVSİYƏ OLUNAN MƏNBƏLƏR


- Mahfi Eğilmez, Ercan Kumcu, (2014). “Ekonomi Politikası: Teori ve Türkiye Uygulaması”, İstanbul: Remzi Kitabevi, 19. Basım.
- Qreqori Mənkyu (2007), “Ekonomiksin əsasları”, Bakı: CBS Polygraphic Production.
- Red. Məhəmmədhəsən Meybullayev (2005), “İqtisadi təlimlər tarixi”, Bakı: “Nurlar” Nəşriyyat-Poliqrafiya Mərkəzi, II Nəşr.
- Rasim Həsənov (2009), “İqtisadi siyasət: metodologiya və praktika”, Bakı: “İqtisad Universiteti” nəşriyyatı.